*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, Filologiya məsələləri № 4, 2024* *ISSN 2224-9257*
*Səh. 187-195*
https://doi.org/10.62837/2024.4.187

**ƏLİZADƏ SİMNAR**
***BDU- nun doktorantı***
*Akademik Zahid Xəlilov Küçəsi 23*
simnarelizade112@gmail.com

# FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN CÜMLƏNİN SEMANTİKA VƏ İNFORMASİYASINA TƏSİRİ

**Xülasə**

Müəyyən fikir ifadə edən cümlədə məqsəddən asılı olaraq, müxtəlif dil vahidləri məna və qrammatik cəhətdən əlaqələnərək müəyyən bir informasiya yükünə sahib olur. Bir qayda olaraq nominativ cümlədə semantika ilə informasiya uyğun gəlir, lakin bunu bütün cümlələrə şamil etmək olmur. Dilimizin lüğət tərkibində mühüm yer tutan frazeoloji birləşmələrin cümlənin semantika və informasiyasına təsiri xüsusilə diqqətimizi cəlb edir. Tarixən formalaşmış, sabit, tərkib hissələrinə parçalanmayan, bütövlükdə məcazi mənanın ifadəsinə xidmət edən belə leksik vahidlərə həm sadə cümlədə və mürəkkəb cümlədə rast gəlirik. Frazeoloji birləşmənin cümləyə daxil olması obrazlılığa, emosionallığa, ekspressivliyə, cümlədə ifadə olunan mənanın qüvvətlənməsinə xidmət göstərməklə yanaşı, cümlənin semantika və informasiyasının bir- birindən fərqlənməsinə, semantikanın dəyişməsinə, cümlənin sətiraltı mənalarının yaranmasına səbəb olur. Bu halda isə kontekstdən və situasiyadan çıxış edərək cümlənin semantikasını və informasiyasını müəyyən etmək lazımdır.

**Açar sözlər.** Frazeoloji birləşmə, cümlə, semantika, informasiya, sabit birləşmə

Cümlənin formalaşmasında məqsəd müəyyən informasiyanı verməkdir. İnformasiyanın yaranmasında cümlədəki dil vahidlərinin (sözlər, köməkçi nitq hissələri, söz birləşmələri) ayrı- ayrılıqda malik olduğu lüğəvi məna və bir- biri ilə əlaqələnərkən yaranan semantik yük əsas rol oynayır. Bununla belə, informasiya ilə cümlədəki zahiri semantik yükü eyniləşdirmək olmaz. İnformasiyanın ötürülməsində cümlədəki semantikadan başqa, digər vasitələr də mühüm rol oynayır. Belə vasitələrdən biri də frazeoloji birləşmələrdir.

Dilin leksik sistemində elə söz birləşmələri var ki, onlar leksik- semantik səciyyəsinə görə müstəqil qrup təşkil edir. Bu birləşmələrin formalaşmasında iştirak edən leksik vahidlər birləşməyə daxil olduqdan sonra öz lüğəvi mənalarından tamamilə uzaqlaşaraq birləşmədə ifadə olunan ümumi bir mənanın ifadəsinə xidmət edir. Məsələn, "gözünün odunu almaq" birləşməsini formalaşdıran "göz", "od", və "almaq" kimi leksik vahidlər öz lüğəvi mənalarından uzaqlaşaraq, birlikdə "qorxutmaq" mənasının ifadəsinə xidmət edir. Bu xüsusiyyəti daşıyan birləşmələr dilçilikdə "sabit söz birləşmələri" və ya "frazeoloji birləşmələr" adlanır. Frazeoloji

birləşməyə məxsus semantik tutumun formalaşmasında bu tip birləşmələrin məcazi məna bildirməsi və fikrin obrazlı şəkildə ifadə olunması mühüm rol oynayır. Mətndən, situasiyadan asılı olaraq frazeoloji birləşmələrdə həqiqi semantik məna ilə məcaziliyin dərəcəsi bir- birindən fərqlənir [2, 184]. Bədii və məişət üslublarında tez-tez rast gəldiyimiz frazeoloji birləşmələr danışanın nitqində obrazlılıq yaratmağa, cümlənin təsir gücünü və emosionallığını artırmağa xidmət edir. Frazeoloji birləşmə işlənmiş cümlələr zəngin semantik çalar ifadə etdiyindən bu tip cümlələrdə semantika və informasiya münasibəti xüsusi diqqət tələb edir. Fikrimizi əsaslandırmaq üçün həm bədii əsərlərin dilindən, həm də şifahi nitqdən seçdiyimiz nümunələri təhlil edəcəyik.

Dilimizdə bəzi birləşmələr var ki, onları eyni zamanda həm həqiqi məna ifadə edən sərbəst söz birləşməsi kimi, həm də məcazi məna ifadə edən sabit söz birləşməsi kimi işlədə bilirik. Cümlə daxilində olan belə birləşmələr bəzən fikrin anlaşılmasında problem yaradır. Bu zaman cümlənin semantikası və buradakı informasiya ciddi yanaşma tələb edir. Cümlənin semantikasını müəyyənləşdirib burada hansı informasiyanın oxucuya ötürüldüyünü müəyyən etmək üçün həmin cümlənin daxil olduğu kontekstə müraciət etmək və mətndəki situasiyaya diqqət etmək lazımdır.

Rüstəm bəy. Mənə bir təşəxxüs satmaqdan ötrü Kərim xanın yurdunu xaraba qoydum, tar- mar elədim, külünü havaya sovurdum... İndi mən bir ağzından süd iyi gələn uşaqdan qorxacağam?! Bir at görməmiş, tüfəng əlinə almamış, örvət sifətdə uşaqdan çəkinəcəyəm [11, 111].

Verilmiş nümunədə “İndi mən ağzından süd iyi gələn uşaqdan qorxacağam?!” cümləsinin semantika və informasiyasına diqqət edək. Nümunədə işlənmiş “ağzından süd iyi gəlmək” ifadəsi mətndən kənarda həm sabit, həm də sərbəst söz birləşməsi kimi işlənə bilir. “Ağzından süd iyi gəlmək” ifadəsini sabit söz birləşməsi kimi düşündükdə “hələ uşaq kimi qalan, təcrübəsi az olan”, sərbəst söz birləşməsi kimi yanaşdıqda isə “çox körpə olduğundan südlə qidalandığı üçün ağzından süd iyi gələn uşaq” semantikasını daşıyır. Cümlədə bu ifadənin hansı semantikanı daşıdığını müəyyən etmək üçün kontekstə müraciət etməli oluruq. Əslində mətndən ayırdıqda “ağzından süd iyi gələn” frazeologizmi onun aid olduğu “uşaq” sözü ilə birləşdikdə məcazlaşmanı daha da qüvvətləndirir. Belə ki, “ağzından süd iyi gələn” ifadəsi “körpə uşaq” anlayışını verdiyi kimi , “uşaq” sözü də eyni anlamı qüvvətləndirir. Ona görə də, ilk baxışda, elə sərbəst söz birləşməsi səciyyəsinə malikdir. Lakin, bir tərəfdən, həmin cümlənin özündə müəyyənləşmə var; “qorxacağam” sözünün yaratdığı semantika özlüyündə “anlaqsız, zəif körpədən qorxmaq anlamına gələ bilməz. Digər tərəfdən, verilmiş cümlənin ardınca işlənən “Bir at görməmiş, tüfəng əlinə almamış, örvət sifətdə uşaqdan çəkinəcəyəm” cümləsinin semantikası da buna bir aydınlıq, dəqiqlik gətirir. Belə ki, bu cümlənin

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2024*
*Səh. 187-195*
ifadə etdiyi fikir, təbii ki, körpəyə yox, bir gəncə aiddir. Bu isə bir daha verilmiş cümlədəki "ağzından süd iyi gələn" ifadəsinin frazeologizm olduğunu göstərir. Lakin burada əsas məsələ nə üçün bir gəncə bu şəkildə müraciət etməkdir. Belə ki, bu ifadə olmadan da "İndi mən bir gəncdən qorxacağam?" cümləsi ilə də Rüstəm bəyin hansısa bir gəncdən qorxmaması ilə bağlı informasiya alırıq. Burada məsələyə iki cür yanaşa bilərik; birincisi, cümlədə güclü kinayə ifadə olunur, ikincisi, "uşaq" sözü daha geniş yaş dövrünü əhatə edir. "Ağzından süd iyi gələn" frazeologizmi həm "uşaq" anlayışını məhdud zaman endirir, həm də, ümumiyyətlə, "hər hansı fiziki hərəkətə, təsirə, müqavimət göstərə bilmə qabiliyyətinə malik ola bilməyən" anlayışını verir. Bu ifadə ilə Rüstəm bəy qarşı tərəfin gücsüz, qüvvəsiz, hərəkətsiz bir adam olduğun nəzərə çatdırır. Digər tərəfdən, bu frazeologizm təkcə qarşı tərəfi səciyyələndirməklə qalmır, eyni zamanda, Rüstəm bəyin gücünü, qüdrətini əks etdirir. Deməli, verilmiş frazeologizm cümlədə böyük bir məzmunun ifadəsinə xidmət etdiyi kimi, onun oxucuya ötürdüyü informasiya da əhatəli və çoxcəhətlidir.

Müasir dövrdə həm dünya, həm də Azərbaycan dilçiliyində frazeologiya məsələlərinə xüsusi diqqət yetirilir. Frazeologizmlər dilin üslubi imkanlarının zənginləşməsində, fikrin obrazlı, emosional və təsirli ifadə olunmasında mühüm rol oynayır. Frazeologizmlər də atalar sözləri və məsəllər kimi birbaşa mənsub olduğu xalqın məişəti, tarixi, dünyagörüşü ilə bağı olduğundan və tarixən formalaşaraq günümüzə qədər gəlib çıxdığından onların əksəriyyətini anlamaq məntiqi təfəkkür tələb edir. Nümunəyə diqqət edək:

Səhər Molla yuxudan oyanıb görür ki, evdə bir həsirdir, bir də Məmmədnəsir [5, 49].

Verilmiş nümunə tabeli mürəkkəb cümlədir. Nümunədə "Səhər Molla yuxudan oyanıb görür" baş cümlədir və cümlənin semantikası aydındır, lakin informasiya tam deyil. Çünki Mollanın nəyi gördüyü bizdə maraq oyadır. Baş cümlədən doğan "nəyi?" sualı isə "Evdə bir həsirdir, bir də Məmmədnəsir" budaq cümləsi ilə cavablanır. Beləliklə, verilmiş cümlə tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlədir. Budaq cümlənin semantikası aydındır, informasiyası isə bu frazeologizmi bilməyənlər üçün aydın deyil. Bu frazeoloji birləşmənin semantikası "kiminsə kasıb, çox yoxsul olması, evində həsirdən başqa heç nəyinin olmaması" anlamına gəlir. Verilmiş frazeoloji birləşmə daha çox iki situasiyada işlədilir;

1. Kiməsə məxsus olan əmlakın oğurlanması zamanı.
2. Bir adamın həddindən artıq yoxsul olduğunu ifadə etmək üçün.

Əslində bu frzeologizmin yerində real, həqiqi məzmuna malik "evinin əşyaları tamam oğurlanıb" ifadəsi verilə bilərdi. Lakin yazıçının məqsədi yalnız oğurluğun baş verməsi haqqında oxucuya məlumat vermək deyil, həm də bu informasiyanın təsir gücünü daha da artırmaq olmuşdur. Bununla da yazıçı müəyyən bir informasiya verməklə yanaşı, emosional təsir yaratmağa çalışıb.

Dilçiliyimizdə frazeologizm termini ilə yanaşı son dövrlərdə sintaktik frazeoloji konstruksiya termini də işləklik qazanmışdır. İstər şifahi, istərsə də yazılı nitqdə fəal işlədilən bu dil elementləri frazeoloji vahidlər kimi kommunikativ akta fəal şəkildə daxil olur, hər hansı fikrin, obrazlı, emosional şəkildə ifadə olunmasına, danışanın ifadə etdiyi fikrə birbaşa münasibətinin ortaya çıxmasına kömək edir. Sintaktik frazeoloji konstruksiyaların yaranmasında iştirak edən dil vahidləri əvvəlki məna və funksiyalarından uzlaşaraq tamamilə fərqli semantikaya sahib fərqli informasiya ifadə edir[7, 30]. Məsələn, "hara?" sual əvəzliyinin sintaktik frazeoloji konstruksiya daxilində ismin müxtəlif hal şəkilçilərini qəbul edərək bir- birindən fərqli mənalar yaratması və sual semantikasından uzaqlaşması nəticəsində müxtəlif strukturlu sintaktik frazeoloji konstruksiyalar əmələ gətirdiyini müşahidə edirik.

İşləri vaxtında qurtara bildiniz?

-Hardan! [1, 73]

Verilmiş nümunədə "Hardan" sintaktik frazeoloji konstruksiyanın komponentidir. Sintaktik frazeoloji konstruksiyanın dəyişən komponenti ixtisar olunaraq yalnız daimi komponenti fikrin ifadəsinə xidmət edir. Verilmiş nümunənin semantikasını müəyyənləşdirmək üçün həm cümlə,həm də mətn həlledici rola malikdir. "Hara? sualı məkan semantikası ifadə edir. Verilmiş cümləni məndən kənarda götürdükdə sualın semantikasına uyğun olaraq "gəlmək, yıxılmaq, düşmək" kimi xəbərlərlə tamamlamalı idik. Kontekstə əsasən isə cümləni "Hardan qurtardı" şəklində bərpa edirik. Dialoqlarda kommunikatorların nitqində tez- tez belə cümlələrlə qarşılaşırıq. "Xeyr", "yox" kimi inkar ədatlarından istifadə edərək inkar cavabı vermək əvəzinə obrazlılığı artırmaq üçün verilmiş sintaktik frazeoloji konstruksiyadan istifadə olunur. "Hardan" sual əvəzliyinin semantikasında "məkan" məzmunu ifadə olunsa da, sintaktik frazeoloji konstruksiya daxilində hər hansı bir "məkan" mənası ifadə olunmur, burada "Yox", "Xeyr" söz- cümlələrinə məxsus semantik məzmun ifadə olunur. Verilmiş sintaktik frazeoloji konstruksiya ilə cavab verdiyimiz bütün cümlələrdə əvvəlki cümlədəki fikri inkar etmiş oluruq. Cümlənin ifadə etdiyi informasiya "Xeyr, işləri vaxtında qurtara bilmədik" cümləsinə müvafiqdir. "Hardan" cümləsi elliptik cümləyə bənzəsə də, ondakı bitmə intonasiyası, çıxış etdiyi ümumi məzmun onun mənasını başa düşməyə imkan yaradır.

Dilimizdə elə frazeoloji birləşmələr var ki, onlar omonimlik xüsusiyyəti daşıyır. Omonim frazeoloji birləşmələrdə iki və daha artıq bir- birindən fərqli məcazi məna ifadə olunduğundan bu birləşmələr cümlə daxilində işləndikdə cümlənin semantika və informasiyasına güclü təsir göstərir. Bu zaman cümlənin semantika və informasiyası xüsusi diqqət tələb edir. Ürəyi yanmaq, ürəyi getmək, söz vermək, can vermək, üz vermək, ürəyi ağzına gəlmək və s. omonim frazeoloji birləşmələrdir. Bu

tip frazeoloji birləşmələr kontekstdən asılı olaraq iki fərqli semantikaya malik olur. Məsələn, "ürəyi ağzına gəlmək" frazeoloji birləşməsi aşağıdakı semantikaları daşıyır;

1. Qorxmaq- Müharibədəki silahların gurultusundan sığınacaqdakıların ürəyi ağızlarına gəlirdi [1, 114]

2. İyrənmək- Zibil yeşiklərinin yanından keçəndə adamın ürəyi ağzına gəlirdi [1, 87].

İstər sadə, istərsə də mürəkkəb cümlələrdə omonim frazeoloji birləşmələrlə rastlaşırıq. Belə cümlələrdə semantika və informasiyanı müəyyən etmək üçün mütləq kontekstə və situasiyaya müraciət olunmalıdır. Fikrimizi əsaslandırmaq üçün nümunələrə diqqət edək;

1. Hamı tanıyır onu, özü də hamının ürəyi gedir onun üçün, görən kimi bağırlarına basıb öpürlər [4, 205].
2. Bir an qorxdu ki, hətta Manafın ürəyi gedə bilər [4, 223].
3. Xurşidbanu. Xasay, bu gün "Məclisi- üns"ün məşğələsi var, bəlkə sən də iştirak eləyəsən? Orada maraqlı söhbətlər olur. Təzə şeirlər oxunur...
   Knyaz Xasay. Axı onların məndən ötrü ürəkləri gedir. Üzr istəyirəm, Banu Bəyim... sizin şair həmkarlarınız məni şeirlə kifayət qədər doyurmuşlar.
   Xurşidbanu. Nə olub, Xasay?
   Knyaz Xasay. İndiyə qədər sizə deyib qanınızı qaraltmaq istəmirdim. Onlar mənə nalayiq həcvlər yazırlar [6, 196].

Hər üç nümunədə "ürəyi getmək" frazeoloji birləşməsi işlənmişdir. Lakin bu nümunələrin hər birində verilmiş frazeoloji birləşmə fərqli semantik yükə malikdir. Təbii ki, bu da cümlələrin semantikasına və ifadə etdiyi informasiyaya təsirsiz ötüşmür. Hər bir nümunənin semantika və informasiyasına nəzər salaq. Birinci cümlə tərzi- hərəkət budaq cümləli tabeli mürəkkəb cümlədir. "Hamı tanıyır onu, özü də hamının ürəyi gedir onun üçün" cümləsində "elə" əvəzlik qəlibi buraxılmışdır. Baş cümlədə buraxılan "elə" əvəzlik qəlibi "Görən kimi bağırlarına basıb öpürlər" budaq cümləsi ilə izah olunub aydınlaşdırılır. Baş cümlənin xəbəri vəzifəsində işlənən "ürəyi getmək" frazeoloji birləşməsinin semantikası "Görən kimi bağırlarına basıb öpürlər" budaq cümləsinin köməyi ilə müəyyənləşir. Əgər kimisə bağırlarına basıb öpürlərsə, deməli, onu sevirlər. Beləliklə, verilmiş cümlədə "ürəyi getmək" birləşməsi "çox sevmək" semantikasını daşıyır. Beləliklə, dəqiqləşən semantika cümlənin informasiyasını müəyyən edir. Cümlənin informasiyası "Hamı onu tanıyır və elə sevir ki, görən kimi bağırlarına basıb öpürlər" cümləsinə müvafiqdir.

İkinci cümlə tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlədir. "Bir an qorxdu" baş cümləsindən doğan "nədən?" sualı "Hətta Manafın ürəyi gedə bilər" budaq cümləsi ilə cavablanır. "Manafın ürəyi gedə bilər" cümləsini mətndən kənarda götürdükdə cümlədən iki informasiya ala bilərik; 1) Manafın həyəcandan və ya qorxudan huşunu itirə biləcəyi, 2) Manafın hər hansı bir şeyi çox bəyənməsi və ya

sevməsi. Lakin mətnə nəzər saldıqda birinci variant daha uyğun gəlir. Cümlədə "hətta" ədatı cümlənin təsir gücünü daha da artıraraq hadisənin ciddiliyini diqqət mərkəzinə gətirir. Əgər Manafın ürəyinin getməsindən qorxulursa, deməli, cümlədə "ürəyi getmək" frazeoloji birləşməsi "huşunu itirmək, bayılmaq" semantikasını daşıyır. Beləliklə, verilmiş tabeli mürəkkəb cümlə "Bir an Manafın huşunu itirəcəyindən qorxdu" informasiyasını verir.

Üçüncü cümlədəki "ürəyi getmək" frazeoloji birləşməsinin cümlənin semantika və informasiyasına təsiri daha çox diqqət tələb edir. Belə ki, əsərdə bədiiliyi artırmaq üçün müəllif obrazın nitqində hər hansı fikri kinayəli şəkildə təqdim edir. Məsələn, hər hansı savad və bilik səviyyəsi aşağı olan biri haqqında "ağlı o qədər çoxdur ki, qulaqlarından tökülür" kimi ifadənin işlənməsini fikrimizə nümunə olaraq qeyd edə bilərik. Üçüncü cümlədə Knyaz Xasayın nitqindəki "Axı onların məndən ötrü ürəyi gedir" cümləsinə əsasən ilk baxışdan bizə elə gəlir ki, burada ətrafındakı insanlar Knyaz Xasayı çox sevirlər və cümlədə "Ürəyi getmək" frazeoloji birləşməsi "bəyənmək, sevmək" mənalarını ifadə edir. Lakin Knyaz Xasayın nitqinin davamı verilmiş cümlənin semantikasının və vermək istədiyi informasiyanın tamamilə fərqli olduğunu üzə çıxarır. Obrazın nitqindəki "Üzr istəyirəm, Banu Bəyim... sizin şair həmkarlarınız məni şeirlə kifayət qədər doyurmuşlar. İndiyə qədər sizə deyib qanınızı qaraltmaq istəmirdim. Onlar mənə nalayiq həcvlər yazırlar" cümlələrinə əsasən müəyyən edirik ki, "Axı onların məndən ötrü ürəkləri gedir" cümləsi kinayəli şəkildə deyilib. Çünki kiminsə haqqında həcv yazılırsa, deməli həmin şəxs tənqid və təhqir olunur. "Sizin şair həmkarlarınız məni şeirlə kifayət qədər doyurmuşlar" deməklə sonrakı fikirlər üçün zəmin hazırlayır. Bununla da, artıq səbrinin qalmadığına, haqsızlığa uğradığına işarə edir. Verilmiş cümlədə "ürəyi getmək" frazeoloji birləşməsi "xoşlamaq, bəyənmək" mənalarının tam əksi olan "sevməmək, zəhləsi getmək, xoşuna gəlməmək, nifrət etmək" semantikalarını ifadə edir. Beləliklə, verilmiş cümlənin semantikasının birbaşa ifadə etdiyi mənanın tamamilə əksi olduğunu görürük. Cümlənin semantikasının dəyişməsi informasiyanı da dəyişdi. Verilmiş cümlədən "Xasayın şairlər tərəfindən sevilməməsi, şairlərin ondan nifrət etməsi" kimi informasiyaları alırıq.

Ədəbi dildə frazeoloji birləşmələr geniş üslubi imkanlara və məzmun çalarlarlarına malikdir. Dilimizdə elə frazeoloji birləşmələr var ki, onlar heç bir əlavə cümlə üzvü olmadan bitmə intonasiyasının köməyi ilə cümlə şəklində formalaşa bilir. Diqqətimizi çəkən frazeoloji birləşmələrdən biri də "Araz aşığından, Kür topuğundan" birləşməsidir. Bu ifadədə şəxs sonluqları ellipsisə uğramışdır. Şəxs sonluğunun bərpası ilə verilmiş birləşmə "Araz aşığındandır, Kür topuğundandır" cümləsinə çevrilir.

Dilimizdə tərkibində müəyyən coğrafi adlara yer verilmiş frazeoloji vahidlər mövcuddur. Lakin frazeoloji birləşmənin tərkibində işlənən bu coğrafi adlar

müəyyən yerə, məkana işarə etmir. Beləliklə, coğrafi adları ifadə edən leksik vahidlər frazeoloji birləşmənin tərkibinə daxil olduqda öz həqiqi mənalarından tamamilə uzaqlaşaraq fərqli məna daşıyır. Bu tip ifadələr müəyyən rəvayət, tarixi hadisə, əhvalatla və s. bağlı yarandığından və hal – hazırda mənbələrdə həmin hadisələrlə bağlı məlumatlar mövcud olmadığından və ya aşkarlanmadığından belə ifadələrin semantikasının müəyyənləşməsində çətinliklərlə qarşılaşırıq [9, 261].

Bu frazeoloji birləşməsinin tərkibində işləndiyi cümlənin semantika və informasiyasına təsirini müəyyən etmək üçün nümunəyə müraciət edək;

Bu qədər probleminin qarşısında o özünü elə aparır ki, sanki Araz aşığından Kür topuğundandır.[1, 56]

Verilmiş nümunə tabeli mürəkkəb cümlədir. "Bu qədər problemin qarşısında o özünü elə aparır" baş cümlədir. Baş cümlədən doğan "necə?, nə tərzdə" sualları isə "Elə bil Araz aşığından, Kür topuğundandır" budaq cümləsi ilə cavablanır. Beləliklə, verilmiş nümunə tərzi- hərəkət budaq cümləli tabeli mürəkkəb cümlədir. Cümlənin semantikası verilmiş fazeologizmin mənası ilə tanış olmayan oxucuya tam aydın olmur. Cümlənin  bütün semantik yükü budaq cümlədə cəmlənib. Verilmiş cümlənin semantikasnı və oxucuya çatdırmaq istədiyi informasiyanı müəyyən etmək üçün isə "Araz aşığından, Kür topuğundan" frazeoloji birləşməsinin semantikasını müəyyən etməliyik. İfadəyə hərfi mənada yanaşsaq, həm aşıq, həm topuq sümükləri ayağın ən aşağı hissəsində yerləşən sümüklərdir. Aşıq sümüyü topuğa nisbətən bir neçə santimetr daha yuxarıda yerləşir. Yəqin etmək o qədər də çətin deyil ki, bu çayların heç biri bu qədər dayaz deyil. Çayların dərinlik fərqinə əsasən yanaşdıqda isə ifadə tərsinə qurulmalı idi; Araz topuğundan, Kür aşığından. Çünki Kür çayı Araz çayından daha dərindir. İfadənin semantikasının dərin qatlarına ensək görürük ki, bu ifadə elə adam haqqında deyiləcək ki, onun beyni dumanlıdır, nə etdiyini anlamır. Bu hal isə iki situasiyada özünü göstərə bilər;

1) Haqqında danışılan şəxs çox sərxoşdur,içkili vəziyyətdə olduğundan olub- bitəni dərk edə bilmir.
2) Haqqına danışdığımız səxs laqeyd və vecsiz insandır.

Baş cümlə budaq cümlənin semantikasının müəyyənləşməsində həlledici rol oynayır. Belə ki, baş cümlədəki "Bu qədər problemin qarşısında" ifadəsinə əsasən bu şəxsin laqeyd və vecsiz biri olması informasiyasını alırıq. Budaq cümlə də öz növbəsində mürəkkəb konstruksiyadır. "Araz aşığından, Kür topuğundandır" cümləsi tabesiz mürəkkəb cümlədir. Beləliklə, verilmiş tabeli mürəkkəb cümlə "Bu qədər problemin qarşısında o özünü vecsiz aparırdı", "Bu qədər probleminə o, laqeyd yanaşırdı"  informasiyalarını ifadə edir.

**Nəticə.** Geniş üslubi imkanlara və zəngin semantik çalara malik olan frazeoloji birləşmələr cümləyə daxil olduqda cümlənin semantika və informasiyasına ciddi təsir göstərir. Frazeoloji birləşmələr cümlədə emosionallığı, obrazlılığı,

ekspressivliyi artıran əsas vasitələrdən biridir. Tərkibində frazeoloji birləşmələr işlənən cümlələrin semantika və informasiyasının müəyyənləşməsi ciddi yanaşma tələb edir. Belə ki, tərkibində frazeoloji birləşmə işlənən cümlələrin semantika və informasiyasını müəyyən etmək üçün, əvvəlcə, frazeoloji birləşmənin ifadə etdiyi mənaya bələd olmaq, daha sonra onun cümlə və ya mətn daxilində hansı məzmuna malik olduğunu və informasiyanın formalaşmasına təsirini müəyyənləşdirmək lazımdır.

**İstifadə olunmuş ədəbiyyat**

1. Abbas A. Ən uzun dərdli hekayə. Bakı, Gənclik, 2019, 130 s.
2. Abdullayev Ə., Seyidov Y., Həsənov A. Müasir Azərbaycan dili, IV hissə, Sintaksis, Bakı, Şərq- Qərb, 2007, 424 s.
3. Axundov A. Ümumi dilçilik. Bakı, Şərq- Qərb, 2012, 280 s.
4. Anar Seçilmiş əsərləri. Bakı, Lider nəşriyyatı, 2004, 416 s.
5. Bayramov H. Azərbaycan dili frazeologiyasının əsasları. Bakı, Maarif nəşriyyatı, 1978, 174 s.
6. Əfəndiyev İ. Seçilmiş əsərləri. Üç cilddə, II cild, Bakı, Avrasiya press, 2005, 336 s.
7. Kazımov Q. Azərbaycan dilinin qrammatikası. Bakı, Elm və təhsil, 2017, 944s.
8. Kərimova S. Müasir Azərbaycan dilində sintaktik frazeoloji konstruksiyaların funksional- üslubi xüsusiyyətləri. Sumqayıt, 2021
9. Müasir Azərbaycan dili. I cild, Azərbaycan SRİ EA Nəsimi adına Dilçilik İnstitutu, Bakı, Elm nəşriyyatı, 1978, 323 s.
10. Müzəffəroğlu T. Müasir Azərbaycan dilində mürəkkəb cümlənin struktur semantikası. Azərnəşr, Bakı, 2002, 304 s.
11. Vəzirov N. Əsərləri. Bakı, Şərq- Qərb, 2005, 304 s.
12. Арутюнова Н. Д. Предложение и его смысл, Наука, 1976, 383 с.

**Simnar Alizada**

**THE EFFECT OF PHRASEOLOGICAL COMBINATIONS ON THE SEMANTICS AND INFORMATION OF THE SENTENCE**

**Summary**

In a sentence expressing a certain idea, depending on the purpose, different language units are linked in terms of meaning and grammar and have a certain information load. As a rule, semantics and information match in a nominative sentence, but this cannot be applied to all sentences. The influence of phraseological combinations, which occupy an important place in the vocabulary of our language, on the semantics and information of the sentence attracts our attention. We find such

lexical units, historically formed, stable, not divided into constituent parts, serving to express the figurative meaning as a whole, both in simple sentences and in complex sentences. In addition to providing imagery, emotionality, expressiveness and strengthening of the meaning conveyed in the sentence, the inclusion of phraseological combination in the sentence causes the semantics and information of the sentence to differ from each other, the semantics to change, and the sub-line meanings of the sentence to appear. In this case, it is necessary to determine the semantics and information of the sentence based on the context and situation.

**Key words**. Phraseological combination, sentence, semantics, information, fixed combination.

**Симнар Ализаде**

## ВЛИЯНИЕ ФРАЗЕОЛОГИЧЕСКИХ СОЧЕТАНИЙ НА СЕМАНТИКУ И ИНФОРМАЦИЮ ПРЕДЛОЖЕНИЯ

**Резюме**

В предложении, выражающем определенную идею, в зависимости от цели разные языковые единицы связаны смыслом и грамматикой и несут определенную информационную нагрузку. Как правило, в именительном предложении семантика и информация совпадают, но это применимо не ко всем предложениям. Обращает на себя внимание влияние фразеологических сочетаний, занимающих важное место в словарном запасе нашего языка, на семантику и информативность предложения. Мы находим такие лексические единицы, исторически сложившиеся, устойчивые, не разделенные на составные части, служащие для выражения переносного значения в целом как в простых предложениях, так и в сложных предложениях. Помимо обеспечения образности, эмоциональности, выразительности и усиления смысла, передаваемого в предложении, включение в предложение фразеологического сочетания приводит к тому, что семантика и информация предложения отличаются друг от друга, меняется семантика, под- линии значения предложения появляются. В этом случае необходимо определить семантику и информацию предложения исходя из контекста и ситуации.

**Ключевые слова.** Фразеологическое сочетание, предложение, семантика, информация, устойчивое сочетание.

**Redaksiyaya daxil olma tarixi: 10.04.2024**
**Çapa qəbul olunma tarixi: 24.04.2024**
**Rəyçi: F.e.d. prof. Tofiq Hacıyev**
**tərəfindən çapa tövsiyə olunmuşdur**